# DÜNYADA İLİN ADAMI



**Azərbaycanın yüksəlişi, beynəlxalq imicinin artması, regionun lider dövlətinə və dünyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməsi ölkəmizin son 13 illik tarixinin əsas göstəriciləridir. Bu onu təsdiq edir ki, ölkəmizin inkişafına və modernləşdirilməsinə hədəflənmiş siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşır. Bölgədə və beynəlxalq miqyasda cərəyan edən siyasi-iqtisadi prosesləri düzgün qiymətləndirən dövlət başçısı ölkəmizin inkişafı ilə yanaşı, dünya birliyindəki mövqelərini də davamlı şəkildə gücləndirir.**

## Azərbaycan transmilli layihələrin reallaşmasına böyük töhfələr verir

Ötən illərin mənzərəsi göstərir ki, qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin gerçəkləşdirilməsi, beynəlxalq enerji təhlükəsizliyi məsələlərində Azərbaycanın xüsusi rolunun artırılması, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin, əhalinin həyat şəraitinin yüksəldilməsi kimi məsələlər Prezident İlham Əliyevin iqtisadi siyasətinin əsas hədəfləri olmuşdur. Bu baxımdan təsadüfi deyil ki, geridə qoyduğumuz hər il Azərbaycanın inkişafına və beynəlxalq nüfuzunun daha da yüksəlməsinə mühüm təsir edən hadisələrlə əlamətdar olur. 2015-ci il də bu baxımdan zəngindir. Bütün bunlar beynəlxalq ictimaiyyətin, o cümlədən nüfuzlu "The Business Year" jurnalının diqqətindən yayınmayıb. Belə ki, jurnal ötən il ərzində Azərbaycanın təşəbbüsü və yaxından iştirakı ilə həyata keçirilən iqtisadi və enerji layihələrini, beynəlxalq humanitar və idman tədbirlərini, ən əsası Prezident İlham Əliyevin fəaliyyətini dərindən təhlil edib. Hər bir məsələyə obyektiv yanaşan jurnal Prezident İlham Əliyevi 2015-ci ildə "Dünyada ilin adamı" seçib.

Jurnalın bu seçimini əsaslandıran amillər aşağıdakılardır:

*- Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə və enerji mənbələrinin şaxələndirilməsinə mühüm töhfə verir. Qlobal transmilli layihələrin həyata keçirilməsində böyük təcrübə toplamış Azərbaycanın ciddi səyləri və liderliyi sayəsində müxtəlif ölkələrin təmsil olunduğu böyük komanda formalaşdırılıb, "XXİ əsrin layihəsi" olan "Cənub qaz dəhlizi"nin, onun tərkib hissəsi kimi "Şahdəniz-2", TANAP və TAP layihələrinin reallaşdırılmasına başlanıb və hazırda bu istiqamətdə işlər sürətlə davam etdirilir.*

*- Azərbaycan tarixdə ilk dəfə təşkil olunan I Avropa Oyunlarını ən yüksək səviyyədə keçirməklə ona göstərilən etimadı tam doğruldub və Avropa ictimaiyyətinə əsl idman bayramı hədiyyə edib. Azərbaycan həm də böyük beynəlxalq tədbirləri nümunəvi şəkildə təşkil etmək, onların yeni standartlarını müəyyənləşdirmək bacarığını, öz böyük potensialını bütün dünyaya bir daha təqdim edib.*

*- Azərbaycan qitələri birləşdirən nəhəng nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsində əhəmiyyətli rol oynayır, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin yaradılması üçün böyük səylər göstərir. Son illər hava, yol, dəniz və dəmir yolu infrastrukturunu ən müasir standartlara uyğun yenidən qurmaqla Azərbaycan qarşıdan gələn dövrdə bütün regionun inkişafına xidmət göstərəcək beynəlxalq nəqliyyat-tranzit şəbəkəsinin mərkəzinə çevrilib.*

*- Azərbaycan beynəlxalq humanitar tədbirlərə evsahibliyi etməklə dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına, multikultural dəyərlərin təşviqinə, sülh və təhlükəsizliyin təmin edilməsinə əməli dəstək göstərir. Artıq Bakı şəhəri dünyanın ən müxtəlif ölkələrini təmsil edən nüfuzlu ictimai-siyasi xadimlərin, tanınmış şəxsiyyətlərin iştirakı ilə bəşəriyyət üçün mühüm əhəmiyyət kəsb edən məsələlərin müzakirə olunduğu mərkəz statusu qazanıb.*

*- Cəmi 20 ildən bir az artıq müstəqillik tarixinə malik Azərbaycanın qazandığı uğurlar hətta dünyanın nəhəng ölkələri üçün nümunə hesab oluna bilər. Etiraf edilməlidir ki, bütün bu nailiyyətlər bilavasitə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır.*

**Ardı 2-ci səh.**

# Dünyada ilin adamı

*Əvvəli 1-ci səh.*

## Prezident İlham Əliyevin şəxsiyyəti beynəlxalq səviyyədə ehtiramla qəbul olunur



Prezident İlham Əliyev dünyada praqmatik, rasional, mükəmməl dünyagörüşlü, çevik və təmkinli idarəetmə prinsiplərinə, dərin analitik təfəkkürə və məqsədyönlü, düşünülmüş siyasi iradəyə malik lider kimi qəbul olunur. Qətiyyəti, diplomatik məharəti onu dünyanın nüfuzlu siyasi rəhbərləri cərgəsinə çıxarıb. Ona görə Azərbaycan Prezidentinin şəxsiyyəti bu gün beynəlxalq səviyyədə ehtiramla qəbul olunur. Dövlət başçısının hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır. Bu kimi keyfiyyətlər, onların nəticəsində əldə olunan uğurlar, dünyanın aktual problemlərinin həllinə verilən töhfələr beynəlxalq ictimaiyyətin diqqətindən qaçmayıb və Prezident İlham Əliyev dəfələrlə keçirilən beynəlxalq sorğuların, nüfuzlu nəşrlərin araşdırmalarının nəticələrinə görə ən yüksək mükafatlara, titullara layiq görülüb.

Azərbaycanda keçirilən rəy sorğuları isə ölkə ictimaiyyətinin Prezident İlham Əliyevin siyasi xəttinə olan etimadını, inamını və dəstəyini dəfələrlə təsdiq edir. Məsələn, aprelin 18-19-da ölkənin əsas monitorinq mərkəzlərindən biri tərəfindən aparılmış sosioloji sorğunun nəticələrinə görə, rəyi soruşulanların 97 faizi İlham Əliyevə tam etibar etdiyini, 89 faizə yaxını İlham Əliyevin onlar kimi insanların maraqlarına cavab verdiyini qeyd edib.

Sorğu zamanı əldə edilmiş məlumatların təhlili göstərir ki, dövlət başçısının belə yüksək reytinqə və etimada sahib olması bütövlükdə uğurlu xarici siyasətin, iqtisadi inkişafla bağlı atılan addımların, Milli Ordunun əldə etdiyi uğurların və s. nəticəsidir. Belə ki, rəyi soruşulanların əksəriyyəti Prezident İlham Əliyevin xarici siyasətini dəstəkləyir: 87,3 faiz bu siyasəti "çox yaxşı" və ya "əsasən yaxşı" qiymətləndirib. Araşdırmaya görə, Dağlıq Qarabağda gərginliyin artması fonunda İlham Əliyevə Ali Baş Komandan kimi dəstək də artıb - ona Ali Baş Komandan kimi rəyi soruşulanların 97 faizi etimad göstərir.

ABŞ-ın müstəqil qeyri-hökumət təşkilatı "Arthur J.Finkelstein & Associates" (AJF) tərəfindən aprelin 23-29-da aparılan ictimai rəy sorğusunda isə 96,8 faiz respondent Azərbaycan Prezidentinə etibar etdiyini bildirib. Respondentlər dövlət başçısının fəaliyyətini "əla", yaxud "yaxşı" qiymətləndiriblər. 96,3 faiz respondent ölkə rəhbərliyinin Azərbaycanı erməni təcavüzkarlarından qoruduğunu bildirərək Azərbaycan Ordusunun cavabının səmərəliliyini "əla" və ya "yaxşı" qiymətləndirib.

Rəyi soruşulanların əksəriyyəti qeyd edib ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ona bitişik rayonlarının işğalı həm ölkənin, həm də ailələrin üzləşdiyi yeganə ən mühüm məsələdir. Əhalinin əksəriyyəti Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və işğal olunmuş digər rayonlarını Ermənistan təcavüzkarlarından təmizləmək üçün istənilən və bütün, o cümlədən hərbi vasitələrdən istifadə etməyə hazırdır.

"Azərbaycanın işğal edilmiş ərazilərində baş vermiş son hadisələr sizi Azərbaycana münasibətdə daha çox, yaxud daha az vətənpərvər etdi" sualına cavabda respondentlərin 97,3 faizi "daha çox" deyə cavab verib. Rəyi soruşulanların 84,4 faizi Prezidentin və Azərbaycan hökumətinin apardığı xarici siyasəti səmərəli hesab edib.

Dağlıq Qarabağ məsələsi insanların fikirlərinə açıq-aşkar hökmranlıq etdiyi, eləcə də insanların hökumətin işğal edilmiş ərazilərdə gördüyü işlərin arxasında birləşməsinə səbəb olduğu bir vaxtda Azərbaycan xalqı iqtisadi islahatlar və sabit cəmiyyət qurmaq kimi bir sıra digər məsələlərlə bağlı hökumətə yüksək qiymət verir.

Azərbaycan bölgənin güc mərkəzi və əsas söz sahibidir, Avropanın yeni enerji təhlükəsizliyi siyasətinin başlıca təminatçılarındandır. Azərbaycanın təşəbbüsü və dəstəyi olmadan bölgədə hər hansı layihənin həyata keçirilməsi mümkün deyil. Bütün bu məsələlərin reallaşmasında və uğurlu həllində Azərbaycan Prezidenti İlham Əliyevin rolu danılmazdır. Bunu beynəlxalq miqyasda, o cümlədən Qərb ölkələrində də bilir və etiraf edirlər. Bu mənada "The Business Year" jurnalının Prezident İlham Əliyevi 2015-ci ildə "Dünyada ilin adamı" seçməsi tamamilə düzgün və obyektiv nəticədir.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**